2019-cu ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 36661 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 29 faiz azdır. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilə nisbətən 30,4 faiz azalaraq 33718 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 92 faizini təşkil edir.

2018-ci ildə muxtar respublikada tikinti sahəsində 12833 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci illə müqayisədə 1,3 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilə nisbətən 2 faiz artaraq 487,8 manat olmuşdur.